# "İslam bankçılığı" mövzusunda təlim başa çatmışdır

**İqtisadiyyat Nazirliyinin "İslam bankçılığı" mövzusunda təliminin bağlanış mərasimi keçirilib.**



Müxtəlif dövlət və özəl sektorda fəaliyyət göstərən mütəxəssislərin, tədqiqatçıların, KİV nümayəndələrinin iştirak etdiyi tədbiri giriş sözü ilə açan İnstitutun direktoru Vilayət Vəliyev iştirakçıları və qonaqları salamlayaraq, treyninqin təşkilatçılarına öz minnətdarlığını bildirərək, sertifikata layiq görülmüş şəxsləri təbrik edib.

Təlimin işinin müvəffəqiyyətlə başa çatdırılması münasibətilə təşkilatçıları, məruzəçi və dinləyiciləri təbrik edən Türk Əməkdaşlıq və Koordinasiya Agentliyinin (TİKA) Bakı Proqram koordinatoru cənab Mustafa Haşim Polat isə çıxışında TIKA-nın Azərbaycanda gördüyü işlər barəsində danışmış, İslam Bankçılığının iqtisadiyyatın inkişafındakı rolunu və bu treyninqin mühüm əhəmiyyətini vurğulamışdı.

İqtisadi Resursların Öyrənilməsi İctimai Birliyinin (İROİB-in) sədri Ruslan Atakişiyev təlimin proqramı, təşkili ideyası haqqında iştirakçılara məlumat verərək, treyninqin təşkilində dəstəyi olan bütün qurumlara bir daha öz minnətdarlığını bildirib.

Öz növbəsində Türk Katılım Bankalar Birliyinin (TKBB) nümayəndəsi Avukat Ümit Akkaya TKBB-nin Azərbaycanda İslam bankçılığının inkişafı ilə bağlı görəcəyi işlər barəsində, Azərbaycan Milli Elmlər Akademiyasının İqtisadiyyat İnstitutunun diroktoru Nazim İmanov AMEA İqtisadiyyat İnstitunun İslam Bankçılığı sahəsində Türkiyə ilə təcrübə mübadiləsi proqramı haqqında söhbət açaraq, belə tədbirlərin tez-tez keçirilməsinə ehtiyac olduğunu diqqətə çatdırıb.

Sonda təlimin məruzəçiləri İstanbul S.Zaim Universitenin professoru, Dr. İbrahim Güran Yumuşak, İstanbul Universitenin İlahiyyat Fakültesi professoru, Dr. Servet Bayındır öz növbəsində təlim iştirakçılarını təbrik etmişlər.

Qeyd edək ki, 22-27 may tarixlərində islam bankçılığı sahəsində kadr potensialının gücləndirilməsi məqsədilə təşkil edilən təlimin həmtəşkilatçıları İqtisadiyyat Nazirliyinin İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutu, Türk Əməkdaşlıq və Koordinasiya Agentliyi (TIKA), Türk Katılım Bankaları Birliyi (TKBB), Azərbaycan Milli Elmlər Akademiyasının İqtisadiyyat İnstitutu, İstanbul Sabahattin Zaim Universiteti (İZU), İqtisadi Resursların Öyrənilməsi İctimai Birliyi (İROİB) və İqtisadi Araşdırmalar və Tədris Mərkəzi (İATM) olmuşdur.

***MƏTANƏT***